# “Heydər Əliyevin dövlətçilik siyasəti və müasirlik”



**AMEA Naxçıvan Bölməsində “Heydər Əliyevin dövlətçilik siyasəti və müasirlik” mövzusunda elmi konfrans keçirilib.**

AMEA Rəyasət Heyəti ilə və birgə təşkil edilən elmi məclisi giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev Ümummilli liderin ölkəyə rəhbərliyinin hər iki dövründə həyatın bütün sahələrində qeydə alınan inkişafdan danışaraq bildirib ki, birinci dövrdə Azərbaycan geridə qalmış aqrar ölkədən inkişaf etmiş sənaye ölkəsinə çevrilmiş, ikinci mərhələ isə ölkəmizin çətin ictimai-siyasi dövrünə təsadüf etmişdir. Dünya miqyaslı siyasət və dövlət xadimi Heydər Əliyev müstəqilliyin ilk dövründə vətəndaş müharibəsi və parçalanmaq təhlükəsi qarşısında qalan Azərbaycanı bu təhlükədən xilas etmiş, adını tariximizə əsl xilaskar kimi həkk etmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli konfransda “Heydər Əliyevin müstəqil dövlətçilik təlimi və müasir dövr” mövzusunda məruzə edib. Akademik bildirib ki, Heydər Əliyev dünyanın ən görkəmli siyasi liderləri arasında özünəməxsus yeri olan, dünya səviyyəli siyasi liderdir. AMEA-da ardıcıl olaraq Heydər Əliyevin 100 illiyinə həsr olunmuş elmi konfransların, tədbirlərin keçirildiyini diqqətə çatdıran akademik qeyd edib ki, bu proses ulu öndərin nadir şəxsiyyətinin, mənalı həyatının və zəngin siyasi irsinin elmi əsaslarla tədqiq olunaraq araşdırılması məqsədi daşıyır.

Konfrans zamanı AMEA-da “Heydər Əliyev İli” çərçivəsində nəşr olunan çoxsaylı kitablar, elmi əsərlər iştirakçıların diqqətinə çatdırılıb.

***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 7 iyun.- S.5.